# Xalq qəzeti

Xalqın qəzeti!

№ 27 (30721) 7 fevral 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# "Zəfər seçkisi" – Yeni dövrün başlanğıcı



**Bu gün – fevralın 7-də Azərbaycanın yeni tarixinin mühüm çağırışlarına cavab vermək üçün keçirilən növbədənkənar prezident seçkilərindən bir il ötür. Xalqın "Zəfər seçkisi" adlandırdığı bu siyasi tədbir bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılmışdı.**

Xatırladaq ki, Seçki Məcəlləsi və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, son seçkidən 7 il sonra, yəni 2025-ci ildə növbəti prezident seçkilərinin keçirilməsi gözlənilirdi. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı 7 dekabr 2023-cü il tarixli sərəncamla Azərbaycanda növbədənkənar prezident seçkiləri günü 7 fevral 2024-cü ilə təyin olundu. Yəni ilk dəfə idi ki prezident seçkiləri qışda keçirilirdi.

Onu da əlavə edək ki, bu, sayca 3-cü növbədənkənar prezident seçkiləri idi. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, Qarabağın işğaldan azad olunmasından sonra ilk dəfə prezident seçkiləri bütün ölkə ərazisində keçirilmişdi. Belə ki, işğaldan azad edilmiş ərazilərdə yaradılmış seçki məntəqələrində 20 min seçici səsvermədə iştirak edə bilmişdi. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 19 dekabr 2023-cü il tarixli iclasında qəbul olunan qərarla işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsi yaradılmışdı.

Seçki gününün təyin edilməsindən sonra ciddi hazırlıq işləri getmiş və məlum olmuşdu ki, ortada Qarabağ və Şərqi Zəngəzurun düşmən işğalından azad edilməsi faktı olduğuna görə, iqtidarlı-müxalifətli bütün insanlar yeni seçki keçirilməsini dəstəkləyir. Mərkəzi Seçki Komissiyasının 16 dekabr 2023-cü il tarixli iclasından sonra sədr Məzahir Pənahov bildirmişdi ki, bu il ilk dəfə işğaldan azad olunmuş Xankəndi şəhərində də seçkilər keçiriləcək.

*(ardı 5-ci səhifədə)*

(əvvəli 1-ci səhifədə)

Sədr bununla bağlı müvafiq seçki məntəqəsinin yaradıldığını və seçki məntəqəsinin keçmiş Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Muxtar Vilayət Komitəsinin inzibati binasında yerləşəcəyini açıqlamışdı. Həmçinin, yeni seçici siyahısı sisteminin tərtib olunduğu, bu layihənin Ədliyyə Nazirliyi ilə birgə hazırladıqlarını açıqlamışdı. Qeyd olunmuşdur ki, işğaldan azad edilən rayonlarda 9 seçki dairəsi üzrə 26 seçki məntəqəsi yaradılmışdır.

Bəlkə də bu faktların sadalanması kiməsə qəribə görünə bilər. Ancaq onlar adi faktlar deyildi. Əvvəla, ona görə ki, ermənilərin "güclü" himayədarlarının köməyi ilə işğal etdikləri qədim torpaqlarımızda 30 ildən sonra seçki qutuları Azərbaycanın Dövlət Bayrağı altında düzülmüşdü. İkinci, cənab Prezident Xankəndidə dövlət televiziyasına müsahibə verərkən demişdi ki, bu arxa tərəfdə görünən bina on illər boyu terrorçu və işğalçıların məskəni olsa da, vaxtilə Azərbaycan dövlətinin vəsaiti hesabına tikilmişdir. İndi həmin binada Azərbaycan Prezidentinin seçilməsi üçün səsvermə təşkil edilməsi, beynəlxalq müşahidəçilərin iştirakı ilə seçki keçirilməsi hay qövmünə gözdağı, Türk dünyasına isə üzağlığı idi.

Fevralın 7-də prezident seçkiləri keçirildi. Həm də böyük uğurla. Cəmi bir həftədən sonra – fevralın 14-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi oldu. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Ekspertlərin fikrincə, növbədənkənar prezident seçkilərinin elan edilməsi, həmin siyasi tədbirə hazırlıq prosesi, səsvermənin ölkəmizin bütün şəhər və kəndlərində təşkil edilməsi, MSK rəsmilərinin və mətbuat təmsilçilərinin seçkilər günü Xankəndidən, Xocalıdan, Şuşadan, Laçından, Kəlbəcərdən ... operativ məlumatlar göndərməsi sevindirici və qürurverici idi. Ancaq cənab Prezidentin 14 fevral 2024-cü il tarixli andiçməsində səsləndirdiyi fikirlər daha çox mötəbər idi. Əvvəla, ona görə ki, həmin fikirlərə bütün dünya qulaq asdı, bədxahlarımız qarışıq hamı eşitdi. İkinci, ona görə ki, Prezident İlham Əliyev artıq Zəfər çalmış qalib sərkərdə, müzəffər dövlət başçısı kimi and içirdi.



Dövlət başçımız andiçməsində dedi: "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

Təbii ki, cənab Prezidentin verdiyi vədlər arasında ilk yerdə, ölkəmizin ərazi bütövlüyünün bərpası dururdu. O, ilk dəfə andiçməsindən sonrakı illərdə, o cümlədən 2018-ci ildə (o seçkilər də növbədənkənar təşkil edilmişdi – red) həmin kürsüdən and içərkən demişdi ki, Ermənistan – Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır: " Heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".

**Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri – siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır.**

**Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindən 10 yanvar 2024-cü il**

Prezident İlham Əliyevin fikrincə, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Dövlət başçımız andiçməsində növbəti dəfə xatırlatdı ki, əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

Bəli, 2024-cü ilin 7 fevral prezident seçkiləri milli tariximizin ləyaqət səhifələrindən birinə çevrildi. Ancaq təkcə həmin seçkilər yox, ölkəmizdə keçirilən digər seçkilərin nəticələri də xalqın inam və etimadını əks etdirir. Cənab Prezidentin dediyi kimi, Azərbaycan yeni dövrə, müasir epoxaya doğru gedir. Dövlətimizə və liderimizə bu möhtəşəm yolda daha böyük uğurlar arzulayırıq!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***